# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN X-XI SİNİFLƏRİNDƏ QRUPLARLA İŞİN TƏŞKİLİNİN MAHİYYƏTİ

**Vüsalə Rüstəmova,**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
E-mail: vusale541@gmail.com

**Rəyçilər:** *tarix.ü. fəls.dok.* S. Seyidova,
*ped.ü. elm.dok.* M. Əmirov

***Açar sözlər:*** *interaktiv təlim, qrup işi, müasir dərs, şagird, müəllim, yaradıcı təfəkkür, kollektiv*
***Ключевые слова:*** *интерактивное обучение, групповая работа, современный урок, ученик, учитель, творческое мышление, коллектив*
***Key words:*** *interactive training, work of group, modern lesson, the student, the teacher, creative thinking, collective*

Son illərdə respublikamızın ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində bir sıra addımlar atılmışdır. Təhsil sahəsində təlimin təşkilinin yeni, səmərəli yollarına müraciət edilməsi tədqiqat işinin müxtəlif formalarda aparılmasına gətirib çıxarmışdır. Təlimin təşkilinin didaktika, fənlərin tədrisi metodikası baxımından səmərəli formasının müəyyənləşdirilməsi müasir dərsin qarşısında duran mühüm problemlərdəndir.

Qədim dövrlərdən müasir günümüzə kimi məktəb tarixində yaranmış təlimin təşkili formalarında başlıca tərəflər müəllim-şagird olmuş və tarix boyu yaranmış təlimin təşkili formalarının (yəni fərdi, fərdi-qrup, qarşılıqlı, diferensial, Manheym, Dalton-plan, sinif-dərs) hər birində şagirdlərin təlim materiallarını düzgün mənimsəməsi zəruri sayılmışdır [2, 219].

Müəllimin dərs zamanı fəal təlimin müxtəlif metod və formalarına müraciət etməsi şagirdlərin təfəkkürünü inkişaf etdirməklə yanaşı onlarda kəşf olunanı özü üçün yenidən kəşf etməsinə motiv yaradır. Müasir dərs prosesinin gedişində tətbiq edilən fəal təlimin iş formalarına aşağıdakılar aiddir : fərdi iş; kiçik qruplarda iş; cütlük şəklində iş; bütün siniflə birgə iş [8, 22].

Fərdi iş verilən tapşırığın bir şagird tərəfindən yerinə yetirilməsi və uşaqların potensial imkanlarının müəyyənləşdirilməsinə zəmin yaradırsa, cütlük şəklində iş zamanı isə məktəblilər tapşırıqlar üzərində cütlərə ayrılaraq işləyir, bir-birilərinin qarşısında öz məsuliyyətlərini dərk etmək bacarığına yiyələnirlər. Kiçik qruplarda işdə 3-6 nəfərdən ibarət qrupun aparıcısı (nümayəndəsi) qrupun işini təşkil edərək, qrupun bütün üzvlərinin müzakirə prosesində fəal iştirakını təşkil etməyə çalışaraq, mövzudan yayınmağa imkan verməyərək, bütün əhəmiyyətli fikirlərin qeydə alınmasına nəzarət edir.

Nəhayət, bütün siniflə birgə iş, hansı ki, buna böyük qrupda iş də deyilir, sinfin bütün şagirdlərinin sual və tapşırıqlar üzrə işə cəlb edilməsini, cavabların, söylənilən fikirlərin geniş müzakirəsini nəzərdə tutur və daha çox diskussiya, debat metodlarının tətbiqində bu iş formasından geniş istifadə edilir.

Təcrübə göstərir ki, interaktiv təlim şəraitində qeyd edilən iş formalarının uzlaşdırılması daha səmərəli nəticə verir. Bununla yanaşı bir çoxları tərəfindən qrup işi formasının yeni təlim metodu kimi başa düşülməsi isə fəal təlim zamanı ən çox istifadə olunan üsulun qrup işi forması olması ilə bağlıdır. Məhz qrup işinin təşkilinin müxtəlif variantları da mövcuddur ki bunu 3 formada göstərmək olar. Bunlardan biri ümumi mövzu ətrafında bütün qrupların müxtəlif tədris materialı ilə işləməsi, digər biri eyni material üzərində qrupların növbə ilə işləməsidirsə, sonuncu isə eyni vaxtda bütün qrupların bir tədris materialı üzərində işləməsidir.

Unutmaq olmaz ki, qrupla işin təşkili yalnız şagirdlərin fəaliyyətindən ibarət deyil. Bu prosesdə müəllimin də riayət etməli olduğu prinsiplər mövcuddur. Bu prinsiplər sırasında müəllimin qrup işinin faydalarını şagirdlərə başa salmasını, iş üçün lazım olan materialları əvvəlcədən hazırlaya-

raq, işin təşkilini dəqiq fikirləşməsini, o cümlədən, qrupda iş qaydalarına düzgün riayət edilməsinə nəzarət etməsini qeyd edə bilərik.

Digər mühüm məsələ qrupun tərkibi ilə bağlıdır. Belə ki müəllim sinfi qrupa bölərkən tərkibin mümkün qədər müxtəlif olmasını əsas götürməlidir. Qrupları təşkil edərkən riayət olunmalı prinsip "yaxşı" və "pis" " zəif" və "güclü" qrupların yaranmasına imkan verməmək, dostları bir qrupda saxlamamaq olmalıdır. Müəllim mümkün qədər tez-tez qrupların tərkibini dəyişərək, şagirdlərin həmişə eyni tərkibdə işləmələrinə yol verməməlidir. Müəllim çalışmalıdır ki, qrup işinin təşkili zamanı müxtəlif, cazibədar üsullara müraciət edərək şagirdlərin bölgüdən darıxmasına imkan yaratmasın. Qeyd edilən qruplara bölmənin üsullarına aşağıdakılar daxildir:

- Rəqəmləri saymaqla;
- Meyvə adları saymaqla;
- Həndəsi fiqurları paylamaqla;
- Rəngli fiqurları paylamaqla;
- Şəklin hissələrinin yığılması (hər iş iştirakçı şəklin bir hissəsini alır və iştirakçılar şəklin hissələrini bir yerə yığıb tam pazlı almalıdırlar) [5].

Ümumtəhsil məktəblərində qruplarla işin təşkili probleminin məzmununa təlimin "müəllim-şagird" dialoqundan imtina edərək "müəllim-qrup-şagird" üçlüyünün qarşılıqlı münasibətlərinə keçməsi aiddir. Qruplarla işin təşkili dedikdə kiçik qrupda (3-6 nəfərdən ibarət) bir neçə şagirdin hansısa problemin həllinə yönəldilmiş birgə uzlaşdırılmış fəaliyyətdir.[3,360]

İnteraktiv təlim şagirdlərə hazır biliyin verilməsini qəbul etmir. Belə ki, şagirdin biliyi tədqiqat vasitəsilə əldə etməsini daha məqsədəuyğun bilir və şagird təlim prosesində sinif, cütlük və qrup formasında qoyulmuş məsələnin axtarışına çıxıb, qrupların əldə etdikləri tədqiqat nəticələri arasında rabitə yaratmalı olur. Nəticədə təlimin interaktiv xarakteri cütlük və ya kiçik qruplar şəklində daha nəzərəçarpan olur.

Ənənəvi təlimdən fərqli olaraq fəal təlimdə şagirdlər problemli situasiya zamanı təfəkkürə, idraka əsaslanaraq şəxsi şərhlərini irəli sürə bilirlər. Qruplarla iş forması da bu təlimin ən üstün forması olaraq şagirdlərin əməkdaşlıq edərək bir-birindən öyrənməsinə və onların kollektivdə işləmək, birgə fəaliyyət bacarıqlarının inkişaf etdirməsinə şərait yaradır.

İstənilən iş formasının mənfi və müsbət cəhətləri vardır. Kiçik və böyük qruplarla iş formasının da ayrı-ayrılıqda bu cəhətlərinə nəzər almaq daha məqsədəuyğundur. İlk öncə kiçik qrup formasına nəzər salaq.

Belə ki müəllim şagirdlərin öyrənməsini təşkil etmək üçün sinfi kiçik qruplara bölür və proses tədqiqatın aparılması mərhələsində icra edilir. Kiçik qrupla işin təşkilinin müsbət cəhətləri çoxdur. Belə ki bir neçə şagird bir qrupda əyləşir və bu zaman şagirdlərin bir-birilərinin arasındakı münasibətləri üzə çıxmağa başlayır şagirdlər bir-birilərilə məsləhətləşdikləri və onların qarşılarına qoyulan problemi birlikdə həll etdikləri üçün şagirdlər arasında əməkdaşlıq yaranır eyni zamanda şagirdlər bir birilərinin fikirlərini dinləməyi bir birlərinin fikirlərinə hörmətlə yanaşmağı bir birlərinə qarşı tolerantlıq göstərməyi öyrənirlər hətta aralarında inadçı şagirdlər varsa zamanla artıq onlar digər şagirdlərin fikirlərini də üstünlüyünə diqqət edirlər və bu baxımdan da onların tərbiyə edilməsinə şərait yaranmış olur. Bu formada işin mənfi cəhət kimi isə xaosun yaranması şagirdlərin bir-birilərinin fikrini qəbul etməməsi işgüzar səs küydən çox əlavə digər səslərin yaranmasına səbəb olunmasını qeyd edə bilərik. Vaxta qənaət etmək imkanı qazanır. Qruplar işi yerinə yetirlər işləri təqdim edirlər, və az vaxta çox iş yerinə yetirlər. Fəal təlimin bu iş formasına müraciət edən müəllimin pedaqoji ustalığa malik olması olduqca bağlıdır. Belə ki müəllim sinifdə şagirdlərin çox olduğunu nəzərə alıb böyük qruplarla işə üstünlük verməlidir. Böyük qrupla işi dərsin tədqiqat mərhələsində və yaradıcı tətbiqetmə mərhələsində istifadə daha məqsədəuyğundur. Bu iş formasının müsbət tərəflərindən biri kimi müəllimin vaxta daha çox qənaət etmiş olmasıdır. Məhz bu iş formasında uşaq çox olduğu üçün problem daha tez həll olur və problemin öhdəsindən daha tez gəlinir. Şagirdlərin sayca çox olması əlverişli şərait yaratmaqla yanaşı mənfi cəhətin yaranmasına yol açır. Belə ki daha çox fikrə sahib şagirdlərin olması həmçinin say baxımından çoxluq təşkil edilməsi bir birinin fikirlərini qəbul etməmək probleminin yaranmasına gətirib çıxarır. Nəticədə əməkdaşlıq pozulur. Digər mühüm məqam qoyulmuş problemin böyük qrup səviyyəsində olmasıdır.

Yəni çox sadə bir problemi böyük qrup iş formasına verilməsi düzgün olmazdı. Məsələn, debat iş üsulunun tətbiqi zamanı şagirdlərin daha çox arqument toplaması üçün daha çox şagirdə ehtiyac duyulur Bu baxımdan da böyük qrupa iş forması daha məqsədəuyğun olur.

Dərs zamanı fəal təlimin qruplarla, cütlərlə iş formalarına, BİBO cədvəli, Venn diaqramı və s. kimi metodlarına müraciət edilməsi şagirdlərdə fəallığın yaranmasına, onlarda bir-birilə-rinin fikirlərinə hörmətlə yanaşmağa, irad və təkliflərini söyləmək imkanına sahib olmağa, özlərində inam hissinin formalaşdırıb, inkişaf etməsinə şərait yaradır.

Qruplarla iş şagirdlərə yaradıcı olmağa, dərs prosesinə temp və rəngarənglik gətirməyə, fikir mübadiləsi etməyə imkan yaradır ki, bu proses şagirdlərin məsuliyyətli fəaliyyətinə, yaradıcı işinə stimul yaradaraq bilik yarışına təməl olur.

**Problemin elmi yeniliyi və aktuallığı.** Məqalədə qruplarla işin təşkilinin məzmunu və mahiyyətini açmaqla yanaşı şagirdlərin bilik və intellektual səviyyəsinin nitq qabiliyyətinin inkişaf etdirilməsinə təsir edən amillər də qeyd edilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Ümumtəhsil məktəblərinin X-XI siniflərində qruplarla işin təşkilinin ən əhəmiyyətli cəhəti şagirdlərə öz biliyini sərbəst əldə etmək, bacarıq və qabiliyyətlərini inkişaf etdirməsi üçün şərait yaratmasıdır.

**Nəticə olaraq,** bu qənaətə gəlirik ki, ümumtəhsil məktəblərinin X-XI siniflərində tədrisin qruplarla iş formasında təşkili

-təlimin keyfiyyətini yüksəldərək, şagirdlərin bilik və intellekt səviyyəsini inkişaf etdirir;

- şagirdlərə sərbəst olmaq üçün yer və fürsətin lazım olduğunu nəzərə alaraq, təlimin məhz bu formada təşkili onlara daha çox ünsiyyətdə olmağa imkan yaradır;

-şagirdlər təlim fəaliyyətinə daha fəal qoşularaq müəllimlə birgə iş yerinə yetirirlər;

-şagirdlər yoldaşları ilə birgə fəaliyyətdə olaraq qarşılıqlı dinləmə, fikir mübadiləsi aparmaq mədəniyyətinə yiyələnirlər.

## ƏDƏBİYYAT


1. Abbasov A.N. Pedaqogika. Bakı: Mütərcim, 2013.
2. Ağayev Ə. Həsənov A. Pedaqogika. Bakı, 2007.
3. Əmirov M. "Ümumtəhsil məktəblərində tarixin fəal\interaktiv təlimi metodikası. Bakı, 2014.
4. İnteqrativ təlimin təşkili və onun əsas prinsipləri // Azərbaycan məktəbi, 2016, № 2
5. https://metodiktovsiyye.blogspot.com/search/label/İş%20formaları
6. Təhsilin inkişafı strategiyası və müasir dərsin təşkili problemləri // Azərbaycan məktəbi, 2014, № 6
7. Tədrisdə interaktiv təlim metodları. AR MN Silahlı Qüvvələrinin Hərbi Akademiyası. Bakı, 2017.
8. Veysova .Z ."Fəal \İnteraktiv təlim: müəllimlər üçün vəsait. Bakı: Unicef, 2007.


**В. Рустамова**

## СУТЬ ОРГАНИЗАЦИИ РАБОТЫ В 10-11 КЛАССАХ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

### *РЕЗЮМЕ*

Статья посвящается, методам и формам, направленным на решение проблем в современных общеобразовательных школах 10-11 классов нашей Республики, которые позволяют выявить талантливых учеников, и создаёт возможность для их развития. В статье также находит своё подтверждение, активное обучение классификаций рабочих форм, используемых в процессе преподавания и как эффективный результат организации работы с группами, показывается самостоятельность выражения учениками своих умений и знаний.

**V. Rustamova**

## ESSENCE OF TEAMWORK IN PUBLIC SCHOOLS FOR 10-11 GRADERS

### *SUMMARY*

This article talks about use of problem solving methods and formations in modern public schools for 10-11 graders in public enriching lesson, unfolding talented students and supporting their progress. Also, it underlines classification of active training used in education proceses and deals with students expressing their ideas and abilities as a result of teamwork.

**Redaksiyaya daxil olub:** 25.12.2017